*Tarix müəlliminin və abituriyentin kitabxanası*

**T.T.VƏLİYEV, Ə.Ə.QOCAYEV**

# Azərbaycan TARİXİ

suallar və cavablar

## Ən qədim zamanlardan 2003-cü ilədək

## I hissə

(Ən qədim zamanlardan XVII əsrin ikinci yarısınadək)

Vəsait Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi dərsliklər əsasında yazılmışdır

**"ƏLFƏRÜL"**
**nəşriyyatı**
**BAKI-2004**

Tarix elmləri doktoru, professor **TOFİQ VƏLİYEVİN**
ümumi redaktəsi ilə

Müəlliflər: **T.T.VƏLİYEV, Ə.Ə.QOCAYEV**

9(414.1)
V56

280496

Rəyçilər: tarix elmləri doktoru, professor **R.C.Süleymanov**
tarix elmləri doktoru, professor **O.B.Əhmədov**

**Azərbaycan tarixi.** Suallar və cavablar. Ən qədim zamanlardan 2003-cü ilədək . I hissə. (Ən qədim zamanlardan XVII əsrin ikinci yarısınadək). Bakı: "Əlfərül" nəşriyyatı, 2004.-248 s., şəkilli

**T.T.Vəliyev və Ə.Ə.Qocayev** tərəfindən iki hissədən ibarət olmaqla yazılmış bu vəsait yeni nəşr olunmuş Azərbaycan tarixi dərslikləri əsasındadır. Vəsaitin birinci hissəsi VI-VIII siniflərin "Azərbaycan tarixi" dərsliklərini əhatə edir. Müəlliflər bütün mövzuları suallar və cavablar şəklində işləmişlər. Bu suallar yalnız faktoloji deyil, həm də ümumiləşdirmə, təhlil etmə, müqayisə etmə, nəticə çıxarma tipli olub, məntiqi və düşündürücü səciyyə daşıyır. Vəsaitin məhz bu şəkildə yazılması ondan istifadə edənlərə tarixi fakt, hadisə və anlayışlar arasındakı səbəb-nəticə əlaqələrini aydınlaşdırmaqda, daha mürəkkəb anlayışların izahını tapmaqda yaxından yardımçı olacaqdır.

Vəsaitdən Azərbaycan tarixi fənni ilə maraqlananlar da istifadə edə bilərlər.

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

İSBN 9952-414-00-6

© **"Əlfərül"** nəşriyyatı, 2004

# ÖN SÖZ

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş proqramlar əsasında yazılmış VI - XI siniflər üçün "Azərbaycan tarixi" dərslikləri artıq müəllimlər və şagirdlər tərəfindən istifadə edilməkdədir. Respublikanın tanınmış tarixçi-alimləri, təcrübəli müəllimləri tərəfindən yazılmış bu dərsliklər Azərbaycan tarixi sahəsində ilk milli dərsliklərdir. Bu dərsliklərdə dünya tarixinin bütün dövrlərinə yeni tələblərdən yanaşılmış, bir çox tarixi fakt və hadisələrin izahında əvvəllər yol verilmiş təhriflər və saxtalaşdırılmalar aradan qaldırılmışdır. Xüsusilə XIX-XX əsrlər tarixinə dair yeni materialların dərsliklərdə öz əksini tapması onların həcminin xeyli artmasına səbəb olmuşdur. XXI əsrin ilk illərində baş vermiş bir çox yeniliklər də bu dərsliklərdə öz əksini tapmışdır. Bütün bunlar həm tarix müəllimlərindən, həm də şagirdlərdən xüsusi səy və çalışqanlıq tələb edir. Bu sahədə onlara kömək məqsədilə dərsliklərin müəlliflərindən olan tarix elmləri doktoru, professor T.T.Vəliyev və Ə.Ə.Qocayev iki hissədən ibarət "Azərbaycan tarixi. Suallar və cavablar" dərs vəsaitini hazırlamışlar. Birinci hissədə Azərbaycan tarixinin qədim və orta əsrlər, ikinci hissə isə yeni və ən yeni dövrlərinə dair materiallar öz əksini tapmışdır.

Müvafiq siniflərdə Azərbaycan tarixinin mənimsənilməsini asanlaşdırmaqda, habelə qəbul imtahanlarına daha səmərəli hazırlaşmaqda bu vəsaitin əhəmiyyəti böyükdür. Vəsaitdə hər bir mövzu üzrə suallar qoyulmuş, onların cavabları konkret və məzmunlu şəkildə izah edilmişdir. Ümumiləşdirici, müqayisə, səbəb-nəticə əlaqələri yaradan suallarla yanaşı, faktoloji suallardan da istifadə edilmişdir. Bu vəsaitdə həm də, əvvəlki dərsliklərin nəşrində getmiş bir sıra səhvlər redaktə edilmiş halda verilmişdir.

Vəsaitdən VI-XI sinif şagirdləri, tarix müəllimləri ilə yanaşı, abituriyentlər də faydalanacaqlar.

Sizə uğurlar arzulayırıq!

T.T.Vəliyev
tarix elmləri doktoru, professor


Azərbaycan
tarixi
(qədim dövr)